

**Allahverdi Əlimirzəyev**
*Azərbaycanın Qədim dövr tarixi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent*

## Azərbaycanda ilk dövlət qurumları

Təqribən beş min il öncə Cənubi Urmiya hövzəsi etnik toplumların hərbi və siyasi arenasına çevrilmişdir. Həmin dövrdə şumerlilər Həmədandan keçən karvan yolu üzərində yerli əhalinin "Aratta" adlandırdığı bölgədə koloniyalarını yaratmışlar. Müstəqil siyasi qurum olan Aratta qismən Azərbaycanın tarixi cənub torpaqlarını da əhatə edirdi. Arattaya getmək üçün şumerlilərin istifadə etdikləri yollardan biri Sənəndəclə Urmiya və Zəribor gölləri arasındakı bölgədən – lullubi tayfasının məskunlaşdığ Zabua ölkəsindən keçirdi.

Aratta şəhər-dövləti baş kahin tərəfindən idarə olunurdu. Lakin o məhdud səlahiyyətlərə malik idi və mühüm qərarlar ali qanunverici orqanda – ağsaqqallar məclisində müzakirə edilərək qəbul olunurdu. Dövlət nümayəndələri şumermənşəli adlar daşıyır, Şunmer tanrılarına (Dumuzi, İnanna, Lama) sitayiş edir, Şumerin piktoqrafik yazı növü ilə tanış idilər. Aratta şəhəri qala divarları ilə əhatə olunmuşdur, istehkam divarları boyunca xəndəklər qazılmışdı. Bütün cəhdlərə baxmayaraq Uruk şəhər-dövlətinin hökmdarı Enmerkarın ordusu arattalıların müdafiəsini dəf edə bilməmişdir.

Aparılan çoxillik arxeoloji qazıntılar nəticəsində Arattanın yerləşdiyi və siyasi təsir məkanına daxil olan ərazilərdə bir-biri ilə genetik bağlılığı olmayan Eneolit (mis-daş) dövrünə aid lokal mədəniyyətlər (Hacı Firuztəpə, Dəlmətəpə, Pişdəlitəpə, Dinhətəpə və s.) aşkara çıxarılmışdır. Bölgənin e.ə. XXVIII əsrə aid edilən təbəqələrində (Kür-Araz mədəniyyəti mərhələsi) əvvəllər bu yerlər üçün səciyyəvi olmayan yeni mədəniyyətin izləri aşkar olunub. Bu mədəniyyətin daşıyıcıları Urmiya hövzəsinə Naxçıvanın (Kültəpə, Maxta, Ovçulartəpəsi) və Şimal-Şərqi Anadolunun həmhüdud məskənlərindən (Pulur, Karas, Ərzurum, Muş, Bitlis) köç etmişlər. Bəzi məskənlərdə qeydə alınmış yanğın əlamətləri bu miqrasiyanın hərbi xarakterindən xəbər verir.

Babil eposlarının birində e.ə. XXVIII əsrin sonlarında Mesopotamiya üçün ciddi təhlükə yaradan miqrasiya haqqında məlumat vardır. Eposdan məlum olur ki, o vaxt Enmerkar bu toplumla döyüşdən çəkinmişdir. "Umman nanda" toplumunun birinci dalğasından sonra Aratta tədricən siyasi-iqtisadi qüdrətini itirsə də xəritədən

silinmədi. Arattanın sakinləri e.ə. XXVI-XXV əsrlərdə də şumerlilərlə əlaqələrini davam etdirmişlər. Bir hesabat sənədində gümüş müqabilində Arattadan tunc alınması və Adab şəhərinin baş dəmirçisinə verilməsi qeyd olunub. Aratta şəhərinin sakini Suz şəhərində (İranın cənub-qərbində yerləşən Elam dövlətinin paytaxtı-red.) tanrı Qilqameşin şərəfinə keçirilən tədbirlə əlaqədar xatırlanır. Akkad hökmdarı Naram-Suenə qarşı yaradılmış hərbi bloka Aratta hökmdarı da qatılmışdır.

Aratta şəhər-dövləti süqut etsə də onun adı bölgənin toponimikasında uzun müddət yaşamışdı. Urartu dövlətinin hökmdarı I Arqişti e.ə. 770-ci illərdə Urmiya gölündən cənubda yerləşən Alateya vilayətinə yürüş etmiş, Aşşur dövlətinin hökmdarı II Sarqon e.ə. 714-cü ildə Aratpatti şəhərinin (hərfi tərcümədə: "Arattanın hüdudu") başçısından xərac almışdır. Həmin dövrdə Mannanın (Azərbaycanın ilk mərkəzləşmiş dövləti) ərazisindən axan çaylardan biri "Aratta" adlanıdı[1].

Hərbi demokratiya mərhələsini yaşayan Urmiya hövzəsinin yerli tayfaları e.ə. III minilliyin ikinci yarısından aktiv şəkildə regionda baş verən siyasi hadisələrə qoşulmağa başlayırlar. Etnik qruplar daimi yaşayış üçün əlverişli relyefi, mülayim iqlimi, zəngin təbii sərvəti, münbit torpağı, bitki örtüyü, bol sulu çayları olan yerlərə üstünlük verir, siyasi-ideoloji mərkəzlərini təbii müdafiə ilə təmin olunan, tranzit karvan yolları və strateji əhəmiyyətli dağ keçidləri üzərində yerləşən ərazidə yaradırdılar. Hər bir etnik qrup bir neçə tayfa birliyində təmsil olunurdu, yəni bir siyasi qurum etnik qrupun (tayfanın) bütün nümayəndələrini əhatə etmirdi.

Lullubilər Urmiya hövzəsinin ən qədim etnik qrupu olmuşlar. Lullubilər Ön Asiyada geniş yayılmış toplumlardan olmuşlar. Lullubi mənşəli muzdlu işçilər e.ə. XXV-XXIV əsrlərdə Şumer şəhərlərinin məbədlərində mövsümi işlərə cəlb edilirdilər. Laqaş şəhər-dövlətində hətta "Lulubi" adlı qəsəbə mövcud idi. III Ur-Şumer dövlətinin təsərrüfatlarında çalışan lullubilərin əməyi gündəlik qida və ərzaqla (əsasən, taxıl, pivə, un, bitki və heyvan mənşəli yağlarla) ödənirdi. E.ə. III minilliyin ikinci yarısında əhalisi, əsasən, lullubilərdən ibarət olan bir neçə çarlıq mövcud olmuşdur. Bunlardan ən şimalda yerləşəni – Lullubum, qonşuluqdakı torpaqların istilası hesabına ərazisini genişləndirməklə yanaşı, güclü Akkad dövlətinin işğalçılıq siyasətinə qarşı mübarizə aparan hərbi ittifaqlara qoşulurdu. İranın qərbində, Zöhab şəhəri yaxınlığında qaya üzərinə həkk olunmuş barelyefi müşayiət edən akkaddilli mətndən bəlli olur ki, Anubanininin hakimiyyəti dönəmində Lullubum dövləti xeyli genişlənərək "Yuxarı dənizdən" (Urmiya gölü) "Aşağı dənizə" (Zeribor gölü) qədər olan ərazini əhatə edirdi. Babil əfsanələrinin birində bu şəxs "umman manda" toplumunun şahı kimi göstərilir. Onun yaratdığı hərbi koalisiya Urmiya hövzəsinin tayfalarını da (qutiləri, turukkuları və kaşşuları) birləşdirmişdi[2]. Naram-Suenə qarşı fəaliyyət göstərən bu koalisiyanın məğlubiyyətindən sonra 17 ölkəni birləşdirən yeni

---

[1] Vansthiphout H.L. Epics of Sumerian Kings: The Matter of Aratta. Atlanta, 2003.
[2] Əlimirzəyev A. Anubanini // Azərbaycan Arxeologiyası və etnoqrafiyası. Bakı, 2012. № 1, s.98-103.

hərbi blok yaranmişdı. Bu hərbi blokda lullubilərə Lapanaila (bir qədər sonra Paşahnadqalni), qutilərə Qulaan, turukkulara İlşunail adlı liderlər başçılıq edirdilər. Bu koalisiya dağıldıqdan sonra Sidur və Satuni adlı iki icma başçısı Lullubum ölkəsində yeni hərbi koalisiya yaratmışlar. Naram-Suenin "Qələbə stelası"nın mətnində bu koalisiya üzərində qələbə vəsf olunur.

Həmin dövrdə lullubilərin Simurru ölkəsində yaratdıqları digər güclü siyasi birliyi də Akkad dövlətinə qarşı çıxış edirdi. Bu ölkənin adı Kerha çayının mənbəyindəki geniş düzənliyin müasir adında − "Seymərrə" (və ya "Seynmərre") formasında qalıb. Simurruya ilk hərbi yürüş Akkad imperiyasının banisi I Sarqonun zamanında baş vermişdir. Simurru hökmdarı Puttimadal qonşu ölkələrin çarları ilə birləşərək Naram-Suenə qarşı hərbi ittifaq yaratmışdır. Bu ittifaqla aparılan döyüşlərin birində Naram-Suen Simurrunun kahini Babanı əsir almışdır[3].

Lullubilərin şimal-qərb qrupu Urartu tayfa ittifaqının yaxınlığında (Yuxarı Zab çayı hövzəsində) yaşayırdı. Bu qonşuluq hərbi münaqişələrlə müşayiət olunduğundan lullubilərin etnik adı Urartu kitabələrində xüsusi isim kimi "düşmən" anlamında işlənirdi.

O vaxtlar Akkad dövlətinə qarşı müharibələrə qutilər də qoşulurdular. Qutilərin şərq qrupunun məskunlaşdığı Kutium ölkəsinin hüdudları Cənubi Urmiya hövzəsini, Qızılüzən çayının vadilərini, Şahverdi-Kafelankuh dağlıq massivini və Əlvənd silsiləsini əhatə edirdi. Qutilərin bu qrupu Sulduz vadisində turukkularla, Süleymaniyyədən Avromandağ silsiləsinə qədər uzanan ərazidə lullubilərlə qonşuluqda yaşayırdılar. Luristandakı dağlıq ərazilərdən isə qutilərin kaşşular və elamlılarla təmas xətti keçirdi. Qutilər ilk dəfə Adab şəhər-dövlətinin çarı Luqalannemunduya (e.ə. XXIV əsrin əvvəli) qarşı döyüşən müttəfiqlər sırasında xatırlanırlar. Onlar sonralar qonşu xalqlarla birgə Şumer-Akkad dövlətinə qarşı yaradılmış hərbi ittifaqda iştirak etmişlər. Qutilərin lideri Enridapizir lullubiləri və subarları səfərbər edərək yeni hərbi-siyasi koalisiya yaratmışdır. Koalisiyanın lideri icma rəhbərlərinin və qoşun başçılarının birləşmiş yığıncağının 6-7 ildən bir keçirilən toplantısında seçildiyindən bu vəsifə irsən keçə bilməzdi. Enridapizir koalisiyaya rəhbərlik müddətinin sonuna yaxın (e.ə. 2133-cü ildə) Akkad dövlətini devirir və Cənubi Mesopotamiyada 47 il davam edən quti işğalı başlayır. Legitimlik müddəti bitəndən sonra Enridapizir hakimiyyəti oğluna devr etdiyinə görə subarlar və lullubilərlə yaradılan hərbi koalisiya parçalanır və keçmiş siyasi birliyin torpaqlarında 20 il ərzində ikihakimiyyətlik hökm sürür. Bu müddət ərzində Qutium ölkəsində 5 (Erridupizir, İbate, Yarlanqab, Kurum, Habilkin), Simurruda 2 dəfə (İnima-Nişba və Yarlaqab) hakimiyyət dəyişikliyi baş vermişdir. Namar vilayətində (Diyala çayının orta axarı) yerləşən quti icmasının başçısı Lisir (və ya Lasirab) ikihakimiyyətliyə son qoymuşdur.

---

[3] Westenholz J. The Legends of Kings of Akkad. Eisenbrauns: Winona Lake, 1997.

E.ə. 2107-2086-cı illəri qutilərin Cənubi Mesopotamiyada ağalığının "intibah dövrü" adlandırırlar. O dönəmdə bərqərar olan siyasi sabitlik Şumer şəhərlərində təsərrüfat sahələrinin inkişafına təminat yaratmışdı. Təsərrüfat hesabatlarının dəqiqliyini və operativliyini təmin etmək məqsədilə sənədlərdə hesab əməliyyatlarının ilini, ayını və gününü göstərməyə başlayır, məxaric sənədləri bəzən ərzaq məhsullarının növünə görə qruplaşdırılırdı. E.ə. 2086-cı ildə Şumer şəhərlərində qutilərə qarşı ümumxalq hərəkatı baş verir və sonuncu quti çarı Tirikanın hakimiyyəti devrilir[4]. Bu məğlubiyyətdən sonra lullubilərin və qutilərin torpaqları öncə şumerlilərin Ur dövlətinin, bir qədər sonra elamlıların Simaşki şahlığının siyasi asılılığına düşür. Həsənli yaşayış yerində (Urmiya gölündən 50 km cənubda) Simaşki şahlığının səkkizinci hökmdarı Tan-Ruhuraterə (e.ə. 1940-1920) məxsus iki toppuz başlığı tapılmışdır.

E.ə. III-II minilliklərin qovşağında lullubi və quti tayfalarının tarixində yeni mərhələ başlanır. Ehtimal olunur ki, təxminən bu dövrdə strateji əhəmiyyətli Aşşur şəhər-dövləti lullubimənşəli sülalənin nümayəndələri (Adasi, Libaiu, Buzaiu, Lullaiu) tərəfindən idarə olunurdu. Simurru ölkəsində Silluş-Daqan adlı liderin başçılığı ilə lullubilərin yeni siyasi elitasının hakimiyyəti bərqərar olur. Simurru hökmdarı İddin-Suenin qələbələrini tərənnüm edən mətn Sər-puli-Zöhab şəhəri yaxınlığındakı qayada, Anubanininin kitabəsindən aşağıda həkk olunub. E.ə. XVIII əsrin əvvəlində Simurru şahlığı əvvəlki qüdrətini itirdiyindən torpaqları qutilərin nəzarətinə keçir.

I Şamşi-Adad (e.ə. 1813-1782) qurduğu Aşşur dövlətinin hüdudlarını kənar ərazilərin işğalı hesabına genişləndirmək və mühüm strateji məntəqələr üzərində nəzarətə sahiblənmək niyyətində idi. Urmiya gölündən cənub-qərbdəki (Raniyə-Bukan və Uşnu-Sulduz ovalıqları) strateji yollar və keçidlər, eləcə də münbit torpaqlarda möhkəmlənmək, eyni zamanda, yerli tayfalar (turukkular, qutilər, lullubilər ) üçün həyati əhəmiyyət kəsb edirdi. E.ə. XVIII əsrin başlanğıcında turukkular siyasi arenada 2 tayfa birliyi ilə təmsil olunurdular. Sulduz-Uşnu vadisində yerləşən İtabalhumda (mərkəzi Kunşum şəhəri) hakimiyyət Tukukti adlı liderdən oğlu Pişendenə və sonralar nəvəsi Tabituyu keçmişdir. Bu kiçik sülalə hakimiyyəti daha sonra Uştanşarri və onun oğlu Turuktinin idarəçiliyi ilə əvəzlənmişdir. Turukkuların Raniyə ovalığında yerləşən Kusanarhum adlı ikinci tayfa birliyində hakimiyyət Naşşumarla onun oğulları Taruqur və Şurtinin tabeliyində olmuşdur. Aşşur hökmdarı I Şamşi-Adadın hərbi müdaxiləsinə qarşı birgə mübarizə aparmaq üçün bu icma rəhbərləri qüvvələrini birləşdirirdilər.

O zaman qutilər bölgə üçün ən destruktiv qüvvə sayılırdı. Qutilər münbit və tranzit əhəmiyyətli Şuşarraya sahiblənmək uğrunda turukkularla mübarizə aparırdılar.

---

[4] Əlimirzəyev A. Quti tayfalarının yayıldığı areal // AMEA Xəbərlər. Ictimai elmlıər seriyası, 2017, № 3, s.20-28; Əlimirzəyev A. Qutilərin Şumerdə inzibati idarəçiliyinin xüsusiyyətləri // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, 2018, № 3 (63), s. 253-260; Əlimirzəyev A. Qutilərin Şumerdə son döyüşü // Milli təhlükəsizlik və hərbi elmlər. Bakı, 2017, s.34-37.

I Şamşi-Adadın öz qızını qutilərin lideri Enduşşe ilə evləndirmək və cehiz olaraq Şuşarra şəhərini ona vermək istəyirdi.

Turukkular yaşayış məskənlərini və məhsullarını qutilərin qarətindən qorumaq üçün lullubiəsilli muzdlu döyüşçülərin dəstəyinə arxalanırdılar və onların xidmətini qızıl və ya taxılla ödəyirdilər. Həmin dövrdə Lullubum ölkəsində eyni vaxtda bir neçə şahın hakimiyyətdə olduğundan xəbər verilir. Het mətnlərində belə hökmdarlardan biri – İmmaşku – "şahlar şahı" adlandırılır.

Təxminən e.ə. 1787-ci ildə I Şamşi-Adad turukkuları dəstəkləyən Elam və Eşnunna hökmdarları ilə qutilərə qarşı ittifaq yaradır. Turukkuların lideri Zazia I Şamşi-Adadın oğlu İşme-Daqanla qohum olana qədər qutilərdən asılı vəziyyətdə idi, hətta öz oğullarını girov qismində xəracla birlikdə Zazumun hüzuruna göndərmişdi. Zazia qutilərin rəğbətini qazanmaq üçün qutilərin təqibi üzündən Turukku ölkəsində sığınacaq tapan Simurru çarını Zazuma təhvil vermişdi. Lakin bir müddət sonra Zazum turukkuların Kabra şəhərinə yürüş etmişdir. Turukkuların hərbi gücü ilə hesablaşmaq məcburiyyətində qalan İşme-Daqan Zazia ilə sülh müqaviləsi imzalamış və Zazianın qızını oğluna almaqla bu ittifaqı diplomatik nikahla möhkəmləndirmişdir. Bu ittifaq ona həm Babil hökmdarı Hammurapiyə qarşı müharibədə, həm də Urmiyanın cənubundakı torpaqlara nəzarəti əldə saxlamaq üçün lazım idi. Turukkular vaxtı ilə itirdikləri Şuşarra şəhərini, başqa ərazilərlə birgə, İşme-Daqanın hakimiyyəti zamanı döyüşsüz geri qaytara bilmişlər. Turukkuların digər lideri Lidaya hurrilərin Purulumzi çarlığında hərbi kontingentini yerləşdirmişdi[5].

Raniyə düzündən şimal-şərqdə, turukkuların yaxın qonşuluğunda kakmi tayfası yaşayırdı. Onların lideri Banana Anubanininin başçılıq etdiyi antiakkad hərbi blokuna qoşulmuşdu. Kakmilər e.ə. XVIII əsrin əvvəllərində Kutium-Ahazum hərbi blokuna qoşularaq I Şamşi-Adada və onun müttəfiqləri olan turukkulara qarşı mübarizə aparırdılar. Həmin vaxt kakmilərə Muşkave adlı çar rəhbərlik edirdi. Muşkave turukkuların Kiqibişe vilayətinə yürüş etmiş, oradan 100 baş qoyun, 10 baş qaramal və xeyli əsir aparmışdır. Turukkuların Kabra vilayətinin başçısı Ardiqande 2000 nəfərlik döyüşçü ilə Kakmiuma yürüş etmişdir. Qarşılıqlı ərazi iddiaları səbəbindən kakmiyalıların və qutilərin turukkularla gərgin münasibətləri təxminən yarım əsrdən sonra Hammurapiyə qarşı mübarizədə hərbi müttəfiqliyə çevrilmişdir. E.ə. 1764-cü ildə Babilistan hökmdarı Hammurapi onların yaratdığı hərbi bloku məğlub etmişdir. Həmin vaxt elamlıların dəstəyilə Puluh adlı quti lideri 10 minlik qoşunla Cənubi Mesopotamiya şəhərlərinə yürüş etmişdir. Qutilərin digər dəstəsi Şubat-Enlildə (indiki Suriyada Təll-Leylan) yerləşdirilmiş Elam hərbi kontingentinin tərkibində

[5] Əlimirzəyev A. Turukkular / AMEA həqiqi üzvü, Sovet ittifaqı qəhrəmanı Z.M.Bünyadovun xatirəsinə həsr olunmuş "Müasir şərqşünaslığın aktual problemləri" ("Z. Bünyadov qiraətləri") mövzusunda Beynəlxalq elmi konfrans (16-17 oktyabr 2017). Bakı, 2018, s.132-142.

fəaliyyət göstərirdi. Bu dəstəyə Navaritum adlı qadın başçılıq edirdi. O, Larsa şəhərinin (indiki İraqda Senkere) alınması uğrunda gedən döyüşlərdə əsir düşsə də, sonradan azad edilmişdir[6]. Muzdlu quti döyüşçüləri Mari şəhər-dövlətinin ordusuna cəlb olunmuşlar, onlardan birinə Biqan adlı komandan başçılıq edirdi[7]. Aşşur çarı Arikdenilunun zamanında (e.ə. 1319-1308) turukkular ağır məğlubiyyətə uğradıqdan sonra mənbələrdə bir daha xatırlanmırlar.

E.ə. 1595-ci ildə Babilistan şahlığında siyasi hakimiyyəti ələ keçirən kaşşuların (kaspilərin əcdadları) hökmdarı II Aqum Diyala çayı hövzəsində yaşayan qutilərə qarşı hərbi əməliyyat həyata keçirmişdir. I Kadaşman-Enlilin zamanında (e.ə. 1374-1360) kaşşular Cənubi Urmiya hövzəsində möhkəmlənməyə çalışırlar. Həsənlidən ona məxsus daş su qabı və Aşşur hökmdarı Aşşuruballitin (e.ə. 1365-1330) tunc toppuzu aşkar olunmuşdur. I Adadnerarinin zamanında (e.ə. 1307-1275) kaşşuların Urmiya hövzəsinə siyasi nəzarəti tədricən heçə enir və növbəti yüz il ərzində bölgənin yerli tayfaları aşşurluların hərbi müdaxiləsinə məruz qalırlar.

E.ə. XIII əsrin əvvəlindən Aşşşur hərb xronikasında Anadolunun şərqində qutilərin qərb qrupunun yerləşdiyi bölgə (Kutmuhi) haqqında məlumatlar yer almağa başlayır. Qonşuluqdakı hurrilər bu bölgəni "Kutiuhe" (və ya "Kuttinaşve") adlandırırdılar. Qutilərin bu qrupu qonşuları ilə hərbi birliklər yaradaraq Aşşur şahlığı əleyhinə mübarizə aparırdılar. Qutilərin bu siyasi qurumunun torpaqlarında e.ə. IX əsrin sonlarında Aşşur dövlətinin əyalət sistemi yaradılmışdır[8].

Babilistanın cənubunda yeni sülalənin təməlini qoyan kaşşu icma başçılarından Simbar-Şipak (e.ə. 1025-1008) Zamua ölkəsinə yürüş etmiş və Atlila şəhərini (=Marağa) viran qoymuşdur. Onun 75 sm uzunluğunda tunc qılıncı naməlum şəraitdə Marağada tapılmışdır. Kaşşuların Diyala çayı hövzəsində (Namarda), Urmiya gölündən cənubda (Allabriyada), Luristanda (Halhubarrada) və Van gölü hövzəsində (Nairidə və Hubuşkiada) kifayət qədər güclü siyasi birlikləri mövcud idi; onların başçıları kaşşumənşəli "yanzi" hökmdar titulu daşıyırdılar[9].

E.ə. IX əsrin başlanğıcında xeyli güclənən Aşşur dövlətinin siyasi dairələri qonşu xalqlardan xərac toplamaqla kifayətlənməyərək təsir dairəsini genişləndirmək, zəbt olunmuş torpaqlarda Aşşurmeyilli idarəçilik sistemi yaratmaqla dünyəvi imperiyaya çevrilməyə can atırdı. E.ə. 885-856-cı illər ərzində II Tukulti-Ninurtanın, II Aşşurnazirapalın və III Salmanasarın apardıqları hərbi əməliyyatlar Urmiya gölünün qərb sahili boyu uzanan Qilzan ölkəsinin çarları Asau (və ya Sua) və Upudan qiymətli metallardan düzəldilmiş əşyalar, at, davar və 7 baş ikihürgüclü dəvələrdən

---

[6] Əlimirzəyev A. Azərbaycanın ilk hərbçi qadınları // AMEA. Naxçıvan bölməsi. Elmi əsərlər. İctimai və humanitar elmlər seriyası., Cild 16, s.2020, s.29-31.
[7] Kozad A.M. The Beginnings of ancient Kurdistan (c. 2500-1500 BC): a historical and cultural syntesis. Leiden University, 2012.
[8] Luckenbil D. D. Ancient Records of Assyria and Babylonia. Chicago, 1926, Vol. I, § 73, §§ 117, 138, 142, 143, 149, 152, 155, 164, 171, 190.
[9] Yenə orada, Vol.I, §§ 573, 637, 639, 682; Vol. II, Chicago, 1927, §§13, 21, 56, 147.

ibarət vergi alınması ilə nəticələnmişdir. II Aşşurnazirapalın (e.ə. 883-859) hakimiyyətinin ilk illərində xərac verməkdən imtina edən Zamua lullubilərinin tayfa başçıları Musasina, Kirtiara, Ameka, Araştua, Arzizu, Sabini məğlub edilmiş, məskənləri dağıdılmış, xeyli sayda at, davar, qızıl və gümüş əşyalar, taxıl aparılmış, əhalinin bir qismi sürgün olunmuşdur.

E.ə. 855-ci ildə aşşurluların "Daxili Zamua" (və ya "Mazamua") adlanın bölgədə iki icma başçısına (Mektiara və Nikdema) qarşı apardığı uğurlu hərbi əməliyyatlar Urmiya hövzəsində möhkəmlənməkdə olan yeni dövlətə – Manna şahlığına – mütəmadi basqınlar üçün zəmin yaradır.

## Manna – Azərbaycanın ilk mərkəzləşmiş dövləti

E.ə. 843-cü ildə III Salmanasarın qoşunları ilk dəfə aşşurlular üçün yeni olan dövlət birləşməsinin – Mannanın qərb torpaqlarında hərbi əməliyyatlar aparmışdır. Mannanın şimal hüdudları Cənubi Göyçə hövzəsinə və Arazın solsahil ərazilərinə qədər uzanaraq Etiuni, Aza və Vedi tayfa birliklərinin torpaqları ilə sərhədlənirdi. E.ə. VIII əsrin əvvəllərində Urartu hökmdarlarının işğal siyasəti nəticəsində Manna bu bölgəyə nəzarəti itirmişdi. Şərqdə Mannanın hüdudları Qızılüzən və Zəncan çaylarına qədər uzanırdı. Mannanın şimal-şərq istiqamətində ən kənar vilayəti Andiya idi. Bu vilayət "Gündoğan dənizin" (Xəzər) sahillərinə qədər uzanırdı. Andiyadan qərbdə, Təbriz-Mianə rayonunda inzibati mərkəzi Parda olan Ziqirtu vilayəti yerləşirdi. Uişdiş vilayəti Mianduabla Səhənd arasındakı bölgəni əhatə edirdi. Şərqdə Manna ilə Mada tayfa ittifaqının sərhəd zolağında Qizilbunda (və ya Qizilbuda) və Abdadana çarlıqları yerləşirdi. Mannanın cənub vilayətləri – Missi və Bit-kapsi Aşşur əyalət sisteminə daxil edilmiş Allabria və Parsua ilə sərhəd zolağında yerləşirdilər. Beləliklə, Manna dövlətinin torpaqları Cənubi Azərbaycanın çox hissəsini və İranın şimal-şərqini əhatə edirdi.

E.ə. 829-cu il yürüşü zamanı Aşşur qoşunları Dayan-Aşşurun komandanlığı altında qarət məqsədi ilə Mannanın içərilərinə daxil olmuşlar. Müqavimətin səmərəsiz olduğunu düşünən Manna çarı Udaki paytaxt Zirtunu tərk edərək dağlara çəkilmiş, aşşurlular xeyli qənimət ələ keçirib şəhəri yandırmışlar[10]. III Adadnerarinin zamanında Manna torpaqlarına 4 dəfə (e.ə. 807, 806, 800, 799) yürüş təşkil olunmuşdur.

E.ə. IX əsrin sonunda Aşşur dövləti siyasi və iqtisadi tənəzzül keçirdiyindən Urartunun işğalçılıq planları üçün yeni imkanlar açılır. Urartu çarı İşpuini (e.ə. 824-810) 10 min suvari, 22 min piyada və 106 cəng arabasından ibarət güclü ordusu ilə

---

[10] Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə (Tərtib və tərcümə edəni, ön sözün və şərhlərin müəllifi S. Qaşqay). Bakı, 2006, s. 28-29.

Meiştaya (Aşşur mətnlərində Missi) hərbi yürüş etmişdir. Onun oğlu Menuanın zamanında (e.ə. 810-786) Manna torpaqları hesabına Urartunun genişlənməsi istiqamətində tədbirlər başlanır. Menua Miandoab yaxınlığında qala tikdirmiş, Manna vilayətlərinin işğalı zamanı ondan dayaq məntəqəsi kimi istifadə etmişdir.

Menuanın oğlu I Arqiştinin zamanında (e.ə. 786-764) Urartu bütün istiqamətlərdə uğurlu müharibələr aparırdı. Onun Mannaya və qonşuluqdakı Buştu vilayətinə ilk yürüşü zamanı (e.ə.779) müqavimət göstərən 18243 nəfərin bir qismi öldürülmüş, digər qismi isə əsir alınmış, 800-ə yaxın at, 100 dəvə, 22529 baş iribuynuzlu mal-qara və 36830 baş davar qənimət kimi aparılmışdır. Manna-Buştu hərbi ittifaqına ən ağır zərbə e.ə. 775-ci ildə vurulmuşdur. Döyüş zamanı urartulular təxminən 14000 nəfəri qılıncdan keçirmiş və əsir götürmüş, 300-dən artıq at, 800 başdan artıq iribuynuzlu mal-qara və 32538 baş davar aparmışlar. E.ə. 779-774-cü illərdə Mannaya edilən yürüşlərdə Aşkaya, İrkuini, Alate, Buştu, Uqiştini (Aşşur mətnlərində Uişdiş) vilayətləri zəbt edilmiş, 3270 əsir, 170 baş at, 62 baş dəvə, 2411 baş qara mal və 6140 baş davar ələ keçirilmişdir. Mannaya son yürüşündə I Argiştinin əsgərləri "hökmdar şəhəri" Şimerihadirini (ola bilsin ki, urartulular İzirtu şəhərini belə adlandırırdılar) viran qoymuşlar. E.ə. 782-ci ildə Aza nahiyəsi zəbt olunmuş, orada Sabuuni (toponimin yazıldığı işarələr səhvən "İrbuuni" kimi oxunur; indiki Qanlıtəpə) və Argiştihinili (indiki Sərdarabad kəndinin yerində) qalaları tikilmişdir.

I Arqiştinin varisi II Sarduri itaətdən çıxan Puluadi vilayətinə (Əhərdən qərbdə) yürüşü zamanı paytaxt Libliuni şəhərini ətrafdakı 55 yaşayış məskəni ilə birgə viran qoymuş, xeyli qənimət ələ keçirmişdir. Onun oğlu I Rusanın (e.ə. 735-714) ekspansiya planlarında Cənubi Göyçə hövzəsi prioritet istiqamət olmuşdur. O, bir il ərzində 23 "ölkəni" (Adaxu, Ueliku, Lueru, Qurkumeli, Arkukini, Ateza, Azameruni və s.) işğal etmiş, xeyli əsir ələ keçirmiş, orada yeni qalalar inşa etdirmiş, Teyşebaini şəhərini saldırmışdır. Urartuluların bu yerlərə marağı Qərbi Zəngəzurdakı mis yataqları ilə bağlı idi. Yalnız II Argiştinin (e.ə. 713-685) Suluku ölkəsində (paytaxtı İrduani) Zazinu adlı icma başçısına qarşı apardığı uğurlu hərbi əməliyyatlardan sonra bu bölgəyə nəzarət tam təmin edilmişdir[11].

Həmin dövrdə Zəncanla Həmədan arasında qutilərin Abdadana (və ya Bit-Abdadani) kimi siyasi birliyi və bir neçə dağınıq icmaları mövcud idi. E.ə. VIII əsrin əvvəlində Abdadana Udqurlimsah adlı çarın hakimiyyətində idi. E.ə. 743-cü ildə III Tiqlatpalasar Abdadana çarları Tunaki və Mannukimasabeni xəraca bağlamış və 5 ildən sonra Mada və qismən də Manna sakinlərinin, o cümlədən qutilərin deportasiyasına start verilmişdir. Qutilərin Suriyanın şimalına deportasiyası 3 mərhələdə həyata keçirilmişdir. Salnamələrdə birinci mərhələdə deportasiya olunanların sayı göstərilmir. İkinci mərhələdə 457 quti ailəsinin (?) Tumme

[11] Yenə orada, s. 107-118.

vilayətinə, üçüncü mərhələdə isə 555 ailənin (?) Til-Karme vilayətinə köçürülməsindən xəbər verilir. Qutilərlə birlikdə müxtəlif icmaların (budilər, bilaylar, banitaylar) və şəhərlərin (Bit-Enlil, Bit-Sanqibutu, Simirra, Arka, Usnu, Siannu və s.) sakinləri də deportasiya olunmuşlar.[12]

Manna çarı İranzu (e.ə. 735-716) Aşşur hökmdarları III Tiqlatpalasarın və V Salmanasarın (e.ə. 727-722) dəstəyindən istifadə edərək ətrafdakı xırda vilayət və icmaları öz dövlətinə birləşdirir. Həmin vaxt Manna hakim elitasının xarici siyasətində ikimeyillik nəzərə çarpırdı. Əyanların bir qrupu Aşşurla ittifaqa meyil göstərərək ölkəni Urartu basqınlarından sığortalamağa çalışırdı. Digər qrup isə siyasətini Urartuya əsasən nizamlayaraq Aşşur əleyhinə fəaliyyət göstərən qüvvələrə qoşulmağa üstünlük verirdi. İranzu Aşşurmeyilli siyasəti ilə, çətinliklə də olsa, vilayət başçılarını mərkəzi hakimiyyətə tabe edə bilmişdi. Ölkədə daxili ixtilafların son həddə çatması vətəndaş müharibəsini labüd etmişdir. Urmiya hövzəsinə nəzarətə can atan Urartu hökmdarı I Rusa separat danışıqlar apararaq e.ə. 719-cu ildə Mannanın beş qala-şəhərinin (Şuandahul, Durdukka (və ya Zurzukka), Sukka, Bala, Abitikna) başçılarını Manna mərkəzi hakimiyyətinə qarşı itaətsizliyə təhrik edir. Aşşur hökmdarı II Sarqonun hərbi dəstəyi sayəsində qiyamçı şəhərlərdə əvvəlki asayiş bərpa olunur və onlar yenidən İranzunun nəzarətinə keçir. Üç ildən sonra vəfat edən İranzu böyük oğlu Aza üçün miras olaraq daxili ixtilaflarla qaynayan ölkə qoyur. I Rusanın dəstəyinə arxalanan Zigirtu, Uişdiş, Missi və Andiya vilayətlərinin canişinləri Mitatti, Baqdatti, Dayaukku və Telusini Azaya tabe olmaqdan imtina edirlər. Aza taxta çıxdığı ildə saray çevrilişi nəticəsində öldürülür. Ullusunu böyük qardaşnın aqibətindən sığortalanmaq üçün çıxış yolunu Aşşurmeyilli orientasiyasını dəyişməkdə görür və saray çevrilişi ilə onu hakimiyyətə gətirən qüvvələrin tərəfinə keçərək Mannanın 22 qalasını I Rusaya hədiyyə edir. II Sarqonun komandanlığı ilə Aşşur ordusunun Mannaya daxil olmasından qorxuya düşən Ullusunu paytaxt İzirtunu tərk edib dağlara qaçır. Aşşurlular İzirtu, İzibia və Armait şəhərlərini yandırırlar, Mannada saray çevrilişində əli olanlar və I Rusanın müttəfiqləri cəzalandırılır. II Sarqon ondan əfv diləyən Ullusununu Manna taxtında saxlayır, səlahiyyətlərini genişləndirir, itirilmiş torpaqları yenidən Mannaya qaytarır. Lakin bir ildən sonra I Rusa yenidən Manna ilə sərhəddəki ərazilərə iddia ilə çıxış edir və separatçılığa meyilli canişinləri Ullusunu əleyhinə üsyana təhrik edir. Manna mərkəzi hakimiyyətinə tabe olmaq istəməyən müxalif qüvvələri cəzalandırmaq üçün e.ə. 715-ci ildə II Sarqon yenidən buraya qoşun yeritməli olur. Aşşur ordusu Uauş dağı yaxınlığında I Rusanın və onun müttəfiqlərinin qoşunlarını məğlub edir. Urartunun 55 istehkamı və 11 qalası, həmçinin Manna çarının tabeliyindən çıxmış 22 qalanı geri qaytarır, Andianın 8 qalası döyüşsüz təslim olur, oradan 4200 əsir mal-qara ilə

[12] Дьяконов И. М. История Мидии. Москва-Ленинград, 1956, с. 196, прим. 7; Azərbaycanın qədim tarixinə dair yazılı mənbələr. Müntəxəbat (Tərtibçilər: R.S. Məlikov, A.N. Əlimirzəyev). Bakı, 2014, s. 55-56.

birlikdə Aşşura aparılır. II Sarqon Aşşur dövlətinin Manna ilə ittifaq münasibətlərini möhkəmləndirmək, orada mərkəzi hakimiyyətin qüdrətini artırmaqla Urartunun siyasi təsirindən azad etmək üçün e.ə. 714-cü ildə Manna ərazisindən keçməklə Urartuya yürüş edir. Ilk zərbə Mannanın Missi vilayətinin qonşuluğunda yaşayan kakmilərə dəyir. Aşşur ordusu Uişdiş vilayətində Mitattinin və I Rusanın müttəfiq qoşunlarına ağır zərbə endirir; məğlubiyyətə dözməyən Urartu çarı canına qəsd edir. Vaxtı ilə Ullusunuya tabe olmaqdan boyun qaçıran Subi, Uişdiş, Sanqibutu (və ya Bara; keçmiş Puluadi), Zarand vilayətləri Manna mərkəzi hakimiyyətinə tabe edilir[13].

Manna qüdrətli siyasi qurum olsa da, Cənubi Azərbaycanın bütün ərazilərini əhatə etmirdi. Xoy-Ərdəbil xəttindən Arazadək olan torpaqlar e.ə. VIII əsrin ortalarına qədər hərbi çaxnaşmalar arenasından kənarda qaldığından hər hansı siyasi qurumun tərkibinə qatılmamışdır. Yalnız o məlumdur ki, II Sarqonun e.ə. 714-cü il yürüşü zamanı Urmiya gölünün şimal və şərq sahili boyu uzanan torpaqlar (Sanqibutu, Uşkaya vilayətləri) Urartudan qoparılıb yenidən Mannanın tərkibinə daxil edilmişdir. Lakin mannalılar bu əraziləri qoruya bilmirlər. Urartu çarı II Arqişti Sarabla Əhər arasında yerləşən strateji əhəmiyyətli 6 yaşayış məskənini (Uşulu, Buku, Qirdu, Tuişdu, Arhu və Qituhani) işğal edərək yeni qalalar inşa etdirir[14]. Salmas, Uşnəviyə, Urmiya, Maku, Kotur, Mərənd və digər yerlərdə urartuluların izlərini təsdiq edən 100-ə yaxın abidə, o cümlədən qala və qalaçaların xarabalıqları qeydə alınmışdır.

E.ə. 720-680-ci illər ərzində kimmer və skif tayfalarının Qafqazın qərb və mərkəzi bölgələrindən keçməklə Van və Urmiya gölləri hövzəsinə böyük axını başlayır. II Sarqonun vəfatından sonra Aşşurla müttəfiqlik münasibətləri pozulan Manna Urmiyaətrafı torpaqların bir hissəsini də itirir. Aşşur və Urartu hakim elitasının təhriki ilə skiflərin çevik atlı dəstələri Mannanın qərb sərhədlərində baş verən münaqişələrə cəlb olunurlar. E.ə. 676-cı ildə Aşşurahaiddin mannalıları və onların müttəfiqi olan skif dəstələrini məğlub edir. Skiflərin bu qrupu Manna vilayətlərinin birində (indiki Marağa və ətraf ərazilərdə) məskunlaşmışdı və onlara İşpaka rəhbərlik edirdi. Skiflərin Partatuanın rəhbərliyi altında olan digər hissəsi isə Urmiya gölündən cənub-qərbdə yerləşən Hubuşkia ölkəsində yerləşmişdi.

Yaranmış situasiyada Mannanın xarici siyasətinin prioritet istiqaməti qətiləşir və çar Ahşeri (e.ə. 675-660) Aşşurla olan dostluq münasibətlərinə birdəfəlik son qoyur. E.ə. 671-ci ildə Mannanın şərq qonşuluğunda, Mada ölkəsində Kar-kaşşi şəhərinin kaşşumənşəli başçısı Kaştaritunun rəhbərliyi ilə Aşşur dövləti əleyhinə üsyan baş verir və mannalıların azadlıq mübarizəsində yeni mərhələ açılır. Skiflərin də qoşulduğu bu antiaşşur hərəkatınının gedişində mannalılar qərb sərhədlərində yerləşən 4 Aşşur qalasını ələ keçirirlər. Bu qalaları diplomatik vasitələrlə geri

[13] Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə., s. 66-79.
[14] Yenə orada, s.118-119.

qaytarmaq cəhdləri bir nəticə vermir. Yalnız 10 ildən sonra qisas üçün münasib şərait yarandığından Aşşurbanapal Mannaya yürüş edir. Ahşeri skif dəstələri ilə birgə müqavimət göstərsə də şəhər və kəndləri, o cümlədən İzirtu dağıdılır və qarət olunur. Əhali bütün uğursuzluğu Ahşerinin yanlış siyasəti ilə əlaqələndirir və üsyan edib Manna çarını öldürürlər. Aşşurbanapal çıxış yolunu qanuni irsi hakimiyyəti bərpa etməkdə görür və Ahşerinin oğlu Uallini Manna çarı kimi tanımalı olur. Sadiqliyini sübut etmək üçün Ualli oğlu Erisinini və qızını girov qismində Aşşurun paytaxtı Ninevaya yollayır, buna cavab olaraq Aşşurbanapal sülhməramlı elçisini İzirtuya göndərir[15]. Aşşurbanapalın uğurlu yürüşündən sonra Manna-Mada-skif hərbi ittifaqı dağılır və Manna sona qədər Aşşurun sadiq müttəfiqinə çevrilir.

Mannanın ərazisi dağlıq, düzənlik hissələrdən və çay kənarı vadilərdən ibarət olduğundan burada əkinçiliyin, maldarlığın və sənətkarlığın inkişafı üçün hərtərəfli imkanlar mövcud idi. Vadi və dağətəyi ərazilərin sakinləri müxtəlif növ dənli və mədəni bitkilər becərir, meyvə ağacları əkirdilər. Əkin sahələri ağac kotanla və ya dəmir toxa ilə şumlanır, məhsul dəmir oraqlarla biçilirdi. Qədim mənbələrdə Mannanın dövlət ambarlarının yağ, şərab, taxıl, hətta döyüş ləvazimatları ilə dolu olduğu bildirilir. Qazıntılar zamanı Həsənlidən belə anbarlardan biri aşkara çıxarılıb; oradan içində arpa, buğda, darı, əncir və üzüm qalıqları olan saxsı qablar tapılıb.

Mannanın təsərrüfat həyatında heyvandarlıq önəmli yer tuturdu. Dağətəyi zonalarda geniş təbii otlaqların olması yaylaq maldarlığının inkişafına zəmin yaradırdı. Bütün hərbi yürüşlər, bir qayda olaraq, iribuynuzlu mal-qaranın, davarın və digər ev heyvanlarının ələ keçirilib aparılması ilə nəticələnirdi. Sangibutu və Subi vilayətləri atçılığın mərkəzləri kimi şöhrət qazanmışlar. Qilzan, Zamua, Missi və Qizilbunda vilayətlərinin sakinləri dəfələrlə Aşşur çarlarına vergi kimi qoşqu atları göndərmişlər və aşşurlular onlardan hərbi əməliyyatlarda istifadə edirdilər. Qazıntılar zamanı Həsənlidən, Mərlikdən, Kalurazdan və digər qədim yaşayış məskənlərindəki məzarlardan at sümüklərinin tapılması at dəfni ilə bağlı adətin mövcudluğundan xəbər verir. Mannalılar Aşşur və Urartu çarlarına vergi qismində dəvələr də verirdilər.

Yazılı mənbələrdə Manna vilayətlər, şəhərlər, qalalar və onların ətrafında salınmış xırda yaşayış məskənləri ilə zəngin ölkə kimi göstərilir[16]. Şəhər mədəniyyətinin yüksək səviyyəyə çatması müxtəlif sənət sahələrinin və onları xammalla təmin etməli olan ticarətin inkişafına təsir göstərirdi. Mannanın ən böyük şəhəri İzirtu (və ya Zirtu, İzerte) ilk dəfə Elam şahı Şilhak-İnşuşinakın e.ə. 1135-ci ildə tərtib olunmuş kitabəsində "İşirtu" formasında xatırlanır; şəhərin dəqiq yeri bilinmir[17]. Manna əhalisinin xeyli hissəsi vilayət və əyalət mərkəzlərinin ətrafındakı

---

[15] Yenə orada, s. 99-102.
[16] Qaşqay S. Manna dövləti. Bakı, 1993, s. 53-58.
[17] Azərbaycanın qədim tarixinə dair yazılı mənbələr., № 37, s. 70-71.

kiçik yaşayış məntəqələrində məskunlaşır, hərbi əməliyyatlar zamanı “güclü şəhərlərə” sığınırdılar. Qalalar təpəli yerlərdə ucaldılır və ətrafına çiy kərpicdən istehkam divarı hörülürdü. Şəhərə yaxınlaşmağı çətinləşdirmək üçün istehkam divarının çevrəsi uzunu xəndəklər qazılırdı. Şəhəri əhatələyən divarlar bürclərlə təmin olunurdu. Düşmən qoşununun hücumu zamanı bürclərdə tonqal yandırılır və bu yolla ətraf məskənlərə yaxınlaşan təhlükədən xəbər verilirdi. İndiki Həsənli kəndinin yerində salınmış qədim şəhər (əvvəlki adı “İda”) iki hissədən ibarət olmuşdur, mərkəzində 200 m diametrlik sahədə Narınqala yerləşirdi. Qalanın bütün çevrəsi boyunca 30-35 metrdən bir 11 sayda kvadrat formalı bürclər tikilmişdir. Xəzinə kimi fəaliyyət göstərən ikimərtəbəli tikilidən müxtəlif dövrlərə aid yazılı əşyalar tapılıb. Şəhər-qala yanğın nəticəsində dağıdılmışdır. Sakkız yaxınlığında yerləşən Ziviyə kəndində (Aşşur mətnlərində Zibia, Uzbia, İzzibia) aparılan qazıntılar zamanı orijinallığı ilə diqqəti cəlb edən 340-dan artıq qiymətli sənət nümunələri, o cümlədən, qızıl döşlük, gümüş və tuncdan düzəldilmiş qoşqu ləvazimatları, qızıl üzük, üzərində həndəsi formalı işarələr yazılmış gümüş sini, qızıl və gümüş ritonlar, qızıl kəmər və s. tapılmışdır; bəzi qabların üzərində əfsanəvi heyvanlar (qrifon və qanadlı öküzlərin) təsvir olunub. Gümüş sini üzərindəki mətn mannalıların heroqlifik yazı növündən istifadə etdiklərinə işarə edir; bu yazının sirri açılmayıb. Yaşayış məskənlərindən və qəbirlərdən yaxşı bişirilmiş bozumtul-qara və qəhvəyi rəngli monoxrom keramika tapılmışdır. Sadə həndəsi rəsmlərlə bəzədilmiş uzun lüləyi olan çaydanlar və qulplu kuzələr orijinallıqları ilə diqqəti cəlb edir.

## Azərbaycan Mada və Əhəmənilər imperiyaları dövründə

E.ə. IX əsrdə Mannadan cənub-şərqdə madalılar tayfa birliyi formasında ilk siyasi qurumlarını yaratmışdılar. Aşşurluların bu siyasi qurumla ilk tanışlığı e.ə. 835-ci ilə təsadüf edir. V Şamşi-Adad e.ə. 820-ci ildə bu siyasi qurumun lideri Hanasirukanı məğlub etmişdir[18]. Herodotun verdiyi mlumata görə Deyok adlı hakimin təşəbbüsü ilə altı tayfanın konsolidasiyası nəticəsində siyasi məkəzi Ekbatana olan Mada dövləti meydana gəlmişdir. Onun oğlu Fravartişin (Herodot onu Fraort adlandırır) zamanında işğalçılıq siyasəti nəticəsində dövlətin hüdudları genişlənir. E.ə. 625-ci ildə onu əvəz edən oğlu Huvaxştranın (Herodotun əsərində Kiaksar) 40 illik hakimiyyəti dövründə mərkəzləşdirilmiş dövlət quruculuğu prosesi başa çatır, ölkədə geniş quruculuq işləri, hərbi sahədə islahatlar həyata keçirilir. E.ə. 616-cı ildə Aşşur dövlətinə qarşı Mada ilə Babilistan arasında hərbi ittifaq yaranır və hərbi əməliyyatların gedişində müttəfiqi Aşşura yardıma gedən mannalı döyüşçülər Kablin şəhərində əsir alınırlar. On bir illik müharibə öncə Mannanın, sonra da müttəfiqi Aşşurun bir dövlət kimi siyasi xəritədən silinməsi ilə başa çatır. Manna

[18] Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə., s. 33.

sonuncu dəfə e.ə. 594-cü ildə qələmə alındığı güman edilən Bibliyanın “Yeremiyanın kitabı” adlanan hissəsində Urartu və skiflərin torpağı ilə birgə, Mada şahlığının inzibati-ərazi subyektləri qismində xatırlanır.

Herodot yazır ki, skiflərin lideri Prototinin oğlu Madi Kiaksara qalib gəldikdən sonra Mada çarlığı 28 il skiflərin işğalı altında qalmışdır. Lakin son 30 ildə mənbələrə münasibətin dəyişməsi, yəni Mada dövlətinin xronologiyasının müəyyənləşdirilməsində Herodota deyil, sinxron və daha etibarlı Aşşur-Babil kitabələrinə üstünlük verilməsi, nəticədə Mada tarixində skif işğalının təkzib olunması üçün əsas yaratdı[19].

585-ci ildə Kiaksar vəfat edir və hakimiyyət onun oğlu Rştivaiqaya (Herodot onu Astiaq adlandırır) keçir. Astiaqın 35 illik uğursuz fəaliyyəti dövlətin beynəlxalq aləmdə nüfuzuna zərbə vurmaqla ölkə daxilində də ixtilafların kəskinləşməsinə, əyan və kahinlərlə mərkəzi hakimiyyət arasında ziddiyyətlərin dərinləşməsinə səbəb olmuşdu. Bir qrup əyan Parsumaş vilayətinin canişini II Kuruşla separat münasibətlər quraraq onu Astiaqa (Herodota görə babasına) qarşı üsyan qaldırıb, hakimiyyəti ələ keçirməyə təhrik etmişdir. Üç il davam edən hərbi əməliyyatlar e.ə. 550-ci ildə Mada imperiyasının süqutuna, onun xarabalıqları üzərində, siyasi varis kimi, parsların dövlətinin – Əhəməni imperiyasının – yaranması ilə nəticələnir və Azərbaycanın tarixi cənub torpaqları bu imperiyanın siyasi təsir sferasına düşür.

E.ə. 529-cu ildə massagetlərlə (onlara Tomiris adlı xanım başçılıq edirdi) döyüşdə II Kuruş öldürülür. II Kuruş e.ə. 545-539-cu illər ərzində Mərkəzi və Orta Asiyanın mühüm siyasi mərkəzlərini (Baktriya, Marqiana, Xarəzm, Sattaqidiya, Areya, Dranqiana, Gedroziya, Araxoziya) zəbt etmişdir və məntiqi baxımdan, massagetlər də, geniş Orta Asiya coğrafiyasının sakinləri kimi, e.ə. 539-cu ilə qədər Əhəmənilərin hakimiyyətinə tabe edilməli idilər. Lakin, bütün mənbələr birmənalı olaraq massagetlərin müstəqilliklərini qoruyub saxladıqlarını və Əhəməni imperiyasının tərkibinə qatılmadıqlarını qeyd edirlər. Digər tərəfdən, nəzərə alınmalıdır ki, Mərkəzi Asiya coğrafiyasında meydana gələn Avestada massagetlər xatırlanmır. Deməli, Herodotun təsvir etdiyi massagetlər Orta Asiyada deyil, Azərbaycanın Arazdan şimaldakı torpaqlarında yaşayırdılar.

Qafqaz e.ə. VI yüzilliyin əvvəllərindən gec olmayaraq massagetlərin məskəninə çevrilmişdir. Pomponi Mela Məhz Qafqazdan danışarkən kadusilərlə yanaşı massagetləri yad etmişdir. Dion Kassi albanları “soykökü massagetlərdən başlayan” adlandırır. Ammian Marsellin də massagetlərin ölkəsinin albanların qonşuluğunda yerləşdiyini qeyd edirdi. Yustin, Polien və Frontin kimi antik müəlliflər Tomirisi skiflərin hökmdarı hesab edirdilər. Bu səbəblərdən tədqiqatçılar “massaget” etnoniminin “böyük saklar” kimi mənalandırılmasının tərəfdarıdır[20].

---

[19] Медведская И.Н. История Мидийского царства (VII-VI вв. до н.э.). Санкт-Петербург, 2018, с. 246, 260-261.
[20] Əlimirzəyev A. Massagetlər və Azərbaycan // Milli Azərbaycan Tarixi muzeyi, 2018, c. 66-74.

E.ə. 522-ci ildə Əhəmənilər imperiyasında saray çevrilişi ilə əlaqədar siyasi böhran yaranır. Darayavauş (I Dara) özünü Əhəmənilər dövlətinin legitim varisi elan edir və böhranın aradan qadırılması istiqamətində hərbi tədbirlərini həyata keçirməyə başlayır. Azərbaycanın tarixi cənub torpaqlarının sakinləri madalı Fravartişin ümumxalq hərəkatını dəstəkləməklə Əhəmənilərin hakimiyyətinə aktiv müqavimət göstərən mərkəzlərdən olmuşlar. Üsyanlar yatırıldıqdan sonra e.ə. 331-ci ilədək Azərbaycanın tarixi torpaqlarının əhəmiyyətli hissəsi Əhəmənilər imperiyasının nominal assılığında qalmışdır.

Yunan-Makedoniya dövlətinin hökmdarı İsgəndərin qalibiyyətli Şərq yürüşü e.ə. 331-ci ildə Əhəmənilər imperiyasının süqutu ilə nəticələnir. Şərq yürüşünün tarixi missiyası təkcə bu nəhəng regionun siyasi xəritəsini dəyişməklə məhdudlaşmadı, yerli mədəniyyətlərlə yunan ideologiyasının qarşılıqlı əlaqələri nəticəsində yeni sinkretik Hellinizm mədəniyyətinin meydana gəlməsi və növbəti yüzilliklər uzunu aparıcı mövqe qazanması ilə əlamətdar oldu. Regionu cənginə alan qlobal dəyişikliklər Azərbaycanın tarixi cənub torpaqlarından da yan keçmədi. İskəndərin ölümündən sonra onun qurduğu imperiyanın tərkibindən ilk qopan da Azərbaycanın tarixi cənub torpaqları oldu. İsgəndərin etimad göstərib e.ə. 328-ci ildə Mada vilayətinə vali təyin etdiyi Atropat adlı şəxs 5 ildən sonra tabeliyində olan torpaqlarda müstəqil dövlət qura bildi və gələcəkdə imperiyanın parçalanması üçün nümunə oldu.

## Azərbaycan Mada və Əhəmənilər imperiyaları dövründə

E.ə. IX əsrdə Mannadan cənub-şərqdə madalılar tayfa birliyi formasında ilk siyasi qurumlarını yaratmışdılar. Aşşurluların bu siyasi qurumla ilk tanışlığı e.ə. 835-ci ilə təsadüf edir. V Şamşi-Adad e.ə. 820-ci ildə bu siyasi qurumun lideri Hanasirukanı məğlub etmişdir[21]. Herodotun verdiyi mlumata görə Deyok adlı hakimin təşəbbüsü ilə altı tayfanın konsolidasiyası nəticəsində siyasi məkəzi Ekbatana olan Mada dövləti meydana gəlmişdir. Onun oğlu Fravartişin (Herodot onu Fraort adlandırır) zamanında işğalçılıq siyəsəti nəticəsində dövlətin hüdudları genişlənir. E.ə. 625-ci ildə onu əvəz edən oğlu Huvaxştranın (Herodotun əsərində Kiaksar) 40 illik hakimiyyəti dövründə mərkəzləşdirilmiş dövlət quruculuğu prosesi başa çatır, ölkədə geniş quruculuq işləri, hərbi sahədə islahatlar həyata keçirilir. E.ə. 616-cı ildə Aşşur dövlətinə qarşı Mada ilə Babilistan arasında hərbi ittifaq yaranır və hərbi əməliyyatların gedişində müttəfiqi Aşşura yardıma gedən mannalı döyüşçülər Kablin şəhərində əsir alınırlar. On bir illik müharibə öncə Mannanın, sonra da müttəfiqi Aşşurun bir dövlət kimi siyasi xəritədən silinməsi ilə başa çatır. Manna

[21] Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə., s. 33.

sonuncu dəfə e.ə. 594-cü ildə qələmə alındığı güman edilən Bibliyanın “Yeremiyanın kitabı” adlanan hissəsində Urartu və skiflərin torpağı ilə birgə, Mada şahlığının inzibati-ərazi subyektləri qismində xatırlanır.

Herodot yazır ki, skiflərin lideri Prototinin oğlu Madi Kiaksara qalib gəldikdən sonra Mada çarlığı 28 il skiflərin işğalı altında qalmışdır. Lakin son 30 ildə mənbələrə münasibətin dəyişməsi, yəni Mada dövlətinin xronologiyasının müəyyənləşdirilməsində Herodota deyil, sinxron və daha etibarlı Aşşur-Babil kitabələrinə üstünlük verilməsi, nəticədə Mada tarixində skif işğalının təkzib olunması üçün əsas yaratdı[22].

585-ci ildə Kiaksar vəfat edir və hakimiyyət onun oğlu Rştivaiqaya (Herodot onu Astiaq adlandırır) keçir. Astiaqın 35 illik uğursuz fəaliyyəti dövlətin beynəlxalq aləmdə nüfuzuna zərbə vurmaqla ölkə daxilində də ixtilafların kəskinləşməsinə, əyan və kahinlərlə mərkəzi hakimiyyət arasında ziddiyyətlərin dərinləşməsinə səbəb olmuşdu. Bir qrup əyan Parsumaş vilayətinin canişini II Kuruşla separat münasibətlər quraraq onu Astiaqa (Herodota görə babasına) qarşı üsyan qaldırıb, hakimiyyəti ələ keçirməyə təhrik etmişdir. Üç il davam edən hərbi əməliyyatlar e.ə. 550-ci ildə Mada imperiyasının süqutuna, onun xarabalıqları üzərində, siyasi varis kimi, parsların dövlətinin – Əhəməni imperiyasının – yaranması ilə nəticələnir və Azərbaycanın tarixi cənub torpaqları bu imperiyanın siyasi təsir sferasına düşür.

E.ə. 529-cu ildə massagetlərlə (onlara Tomiris adlı xanım başçılıq edirdi) döyüşdə II Kuruş öldürülür. II Kuruş e.ə. 545-539-cu illər ərzində Mərkəzi və Orta Asiyanın mühüm siyasi mərkəzlərini (Baktriya, Marqiana, Xarəzm, Sattaqidiya, Areya, Dranqiana, Gedroziya, Araxoziya) zəbt etmişdir və məntiqi baxımdan, massagetlər də, geniş Orta Asiya coğrafiyasının sakinləri kimi, e.ə. 539-cu ilə qədər Əhəmənilərin hakimiyyətinə tabe edilməli idilər. Lakin, bütün mənbələr birmənalı olaraq massagetlərin müstəqilliklərini qoruyub saxladıqlarını və Əhəməni imperiyasının tərkibinə qatılmadıqlarını qeyd edirlər. Digər tərəfdən, nəzərə alınmalıdır ki, Mərkəzi Asiya coğrafiyasında meydana gələn Avestada massagetlər xatırlanmır. Deməli, Herodotun təsvir etdiyi massagetlər Orta Asiyada deyil, Azərbaycanın Arazdan şimaldakı torpaqlarında yaşayırdılar.

Qafqaz e.ə. VI yüzilliyin əvvəllərindən gec olmayaraq massagetlərin məskəninə çevrilmişdir. Pomponi Mela Məhz Qafqazdan danışarkən kadusilərlə yanaşı massagetləri yad etmişdir. Dion Kassi albanları “soykökü massagetlərdən başlayan” adlandırır. Ammian Marsellin də massagetlərin ölkəsinin albanların qonşuluğunda yerləşdiyini qeyd edirdi. Yustin, Polien və Frontin kimi antik müəlliflər Tomirisi skiflərin hökmdarı hesab edirdilər. Bu səbəblərdən tədqiqatçılar “massaget” etnoniminin “böyük saklar” kimi mənalandırılmasının tərəfdarıdır[23].

---

[22] Медведская И.Н. История Мидийского царства (VII-VI вв. до н.э.). Санкт-Петербург, 2018, с. 246, 260-261.
[23] Əlimirzəyev A. Massagetlər və Azərbaycan // Milli Azərbaycan Tarixi muzeyi, 2018, c. 66-74.

E.ə. 522-ci ildə Əhəmənilər imperiyasında saray çevrilişi ilə əlaqədar siyasi böhran yaranır. Darayavauş (I Dara) özünü Əhəmənilər dövlətinin legitim varisi elan edir və böhranın aradan qadırılması istiqamətində hərbi tədbirlərini həyata keçirməyə başlayır. Azərbaycanın tarixi cənub torpaqlarının sakinləri madalı Fravartişin ümumxalq hərəkatını dəstəkləməklə Əhəmənilərin hakimiyyətinə aktiv müqavimət göstərən mərkəzlərdən olmuşlar. Üsyanlar yatırıldıqdan sonra e.ə. 331-ci ilədək Azərbaycanın tarixi torpaqlarının əhəmiyyətli hissəsi Əhəmənilər imperiyasının nominal assılığında qalmışdır.

Yunan-Makedoniya dövlətinin hökmdarı İsgəndərin qalibiyyətli Şərq yürüşü e.ə. 331-ci ildə Əhəmənilər imperiyasının süqutu ilə nəticələnir. Şərq yürüşünün tarixi missiyası təkcə bu nəhəng regionun siyasi xəritəsini dəyişməklə məhdudlaşmadı, yerli mədəniyyətlərlə yunan ideologiyasının qarşılıqlı əlaqələri nəticəsində yeni sinkretik Hellinizm mədəniyyətinin meydana gəlməsi və növbəti yüzilliklər uzunu aparıcı mövqe qazanması ilə əlamətdar oldu. Regionu cənginə alan qlobal dəyişikliklər Azərbaycanın tarixi cənub torpaqlarından da yan keçmədi. İskəndərin ölümündən sonra onun qurduğu imperiyanın tərkibindən ilk qopan da Azərbaycanın tarixi cənub torpaqları oldu. İsgəndərin etimad göstərib e.ə. 328-ci ildə Mada vilayətinə vali təyin etdiyi Atropat adlı şəxs 5 ildən sonra tabeliyində olan torpaqlarda müstəqil dövlət qura bildi və gələcəkdə imperiyanın parçalanması üçün nümunə oldu.